**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**XƏZƏR UNİVERSİTETİ**

**TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİ**

**HƏYAT ELMLƏRİ DEPARTAMENTİ**

# Heyvan davranışı və rifahı

# SİLLABUS

Tədris ili və semestri

2024/2025-ci tədris ilinin payız semestri

**Müəllim: Çiçək Əliyeva**

**Razılaşdırılmışdır** **Təsdiq edirəm**

**Departament müdiri**

**b.ü.f.d. C.M.Eldarova**

| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin kodu, adı və kreditlərin sayı** | VET228 Heyvan davranışı və rifahı, 4 AKTS | |
| | **Departament** | Həyat elmləri | |
| | **Proqram** | Bakalavr | |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim** | Çiçək Əliyeva | |
| | **E-mail** | ciceksuleymanova3@gmail.com | |
| | **Telefon** | +994 55 801 32 85 | |
| | **Dərs otağı, dərs cədvəli** | Bakıxanov qəsəbəsi, Elşən Mehdiyev 478 | |
| | **Məsləhət saatı** | Tələbələrlə razılaşmadan sonra vaxt təyin ediləcək | |
| **Prerekvizitlər** | Yoxdur | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | ***Əsas dərsliklər:***<br>1. James Yeales. Companion Animal care and welfare, Wiley Blackwell 2019<br>2. Bazer, Fuller Warren, Pond, Wilson G., Rollin, Bernard E. Animal welfare in animal agriculture : husbandry, stewardship, and sustainability in animal production: Publisher: CRC Press 2012,<br>3. Bonnie V. Beaver Donald L. Höglund Efficient Livestock Handling The Practical Application of Animal Welfare and Behavioral Science 2019<br>4. Daniel S. Mills The Encyclopedia of Applied Animal Behaviour and Welfare 2019<br>***Əlavə vəsaitlər:***<br>***Köməkçi –WEB mənbələr***<br>***https://www.oie.int/en/what-we-do/animal-health-and-welfare/animal-welfare/***<br>***https://www.fao.org/ag/againfo/themes/animal-welfare/aw-resources/codes-of-practiceand-recommendations/en/?no_cache=1*** | | |
| **Tədris metodları** | **Mühazirə** | | x |
| | **Qrup müzakirəsi** | | x |
| | **Seminar** | | x |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Davamiyyət** | Semestrin sonunda | 5 |
| | **Fəallıq** | Hər dərs | 5 |
| | **Yoxlama işi (Quiz)** | Semestr ərzində | 10 |
| | **Prezentasiya** | Semestr ərzində | 10 |
| | **Aralıq imtahanı** | Cədvəl üzrə | 30 |
| | **Final imtahanı** | Cədvəl üzrə | 40 |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Heyvan davranışı və rifahı – biologiya, heyvanların normal və patoloji fiziologiyası və digər təbiət elmləri ilə əlaqəli şəkildə heyvanların mövcud olduğu təbii ekosistemdə, iqtisadi və sosial mühitdə növlərin tələbatına görə yaşayışının təmin olunması məsələlərini öyrənən elm sahələrinin məcmusudur. | | |

| | |
|---|---|
| **Kursun məqsədi** | *Ümumi məqsəd*:<br>Heyvanların davranışı və rifahı təkamül və müxtəlif iqlim dəyişiklikləri şəraitində təbii aləmdə heyvanların yaşayışının və heyvan növlərinin inkişaf etdirilməsi üçün tələblərin öyrənilməsi və tətbiq edilməsi məqsədini daşıyır. Təbii ekosistemlərdən fərqli olaraq insanlar tərəfindən yaradılmış iqtisadi və sosial mühitlərdə heyvanların yaşaması üçün onların məxsus olduğu növlərə aid ehtiyacların ödənilməsi zəruri əhəmiyyət kəsb edir ki, sözügedən elm sahəsi təbiətdə növlərin itməməsinə verdiyi tövhələrə görə çox vacibdir. Bu elm sahəsi, “Vahid sağlamlıq” konsepsiyasının tərkib hissəsi olduğu üçün insan sağlamlığının, heyvan sağlamlığının və ətraf mühitin qorunmasında birgə fəaliyyətlərin tənzimlənməsində mühüm rola malikdir.<br>Kursun məqsədi heyvanların davranışından və həyat tərzindən asılı olaraq heyvanlar üçün təbii, insanlar üçün isə iqtisadi və social tələbatın ödənilməsinin təmin olunmasına dair biliklərin verilməsindən və praktik vərdişlərin formalaşdırılmasından ibarətdir.<br>*Xüsusi məqsədlər*:<br>- Tələbələrin akademik potensialını aşkarlamaq, onları elmə həvəsləndirmək və onların öz potensiallarını realizə etməyə yardımçı olmaq;<br>- Tələbələrə bioloji tədqiqatların hazırkı və gələcək elmin inkişafı üçün vacibliyini mənimsətmək;<br>- Tələbələrin kursda iştirakını həvəsləndirmək, qarşılıqlı hörmət və anlayış mühitini təmin etmək;<br>- Sözügedən elm sahəsinə beynəlxalq, regional və ölkədaxili tələbat barədə seçimlərin aparılması vərdişlərini təlqin etmək |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Kursun sonunda tələbələr nəyi biləcəklər:**<br>- Heyvanların davranışı və rifahı elminin yaranma tarixi haqqında qısa məlumatları;<br>- Heyvanat aləminin yaranması, təkamülü, filogenetik və ontogenetik xüsusiyyətlərini; - Məhsuldar heyvanların rifahına dair tələbləri;<br>- Heyvan mənşəli ərzaq məhsullarına və xammala görə artan tələbatın qarşılanması məqsədilə heyvanların məhsuldarlığının artırılması yolları;<br>- İri- və xırdabuynuzlu heyvanlar, quşlar, təkdırnaqlı və xəzsərili heyvanlar, donuzlar, arılar və su heyvanlarının yetişdirilməsi və təsərrüfat idarəçiliyində heyvanların rifahının və məxsusi ehtiyaclarının təmin edilməsi;<br>- Heyvan mənşəili məhsulların qida təhlükəsizliyi zəncirində heyvan rifahının rolu;<br>- Saxlama, yemləmə, yetişdirmə, daşıma (müxtəlif yollar aid nəqliyyat vasitələri ilə), öz hərəkəti sürülmə və digər şəraitlərdə heyvan rifahının təmin edilməsi ;<br>- Antibiotiklərin və digər baytarlıq preparatlarının heyvan rifahında rolu;<br>- “Vahid sağlamlıq” konsepsiyasının tərkib hissəsi kimi heyvanların davranışı və rifahının təsir dairəsi. |

| | |
|---|---|
| **Qaydalar (tədris siyasəti və davranış)** | **Dərsin təşkili**<br>-Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaqdır.<br>-Yeni mövzu əyani vasitələrin (PPT və video fayllar) nümayişi ilə izah ediləcəkdir.<br>-Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri **(Quiz**) yoxlanılacaqdır.<br>-Seminar məşğələləri zamanı tələbələrin əvvəlki mövzunu mənimsəmələri şifahi və yazılı sorğunun keçirilməsi ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır (Fəallıq).<br>-Semestr ərzində fərdi mövzuda **prezentasiyaların** verilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiyanın özü isə çap olunmuş variantda təhvil verilməlidir. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>-Semestr ərzində 9 fərdi laborator işi aparılması vacibdir. Laboratoriya dərsində ağ xalat geyilməlidir. Laborator işinin nəticələri dəftərdə protokollaşdırılmalıdır. Hər bir protokolda laborator işin adı, prinsipi, gedişi, alınan nəticələr və müzakirə bölmələri yazılmalı və müəllim tərəfindən yoxlnılmalı, şifahi sorğu aparılaraq qiymətləndirilmədir. Semestrin sonunda ortaq qiymət şıxarılır. Bu qaydalarla dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Dərsə gecikmələr və ya digər dərs pozuntuları<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. |
| | **Yoxlama işi (Quiz)**<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır. İmtahan qaydalarının pozuntuları<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürülmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası**<br>Universitənin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. |

## MÖVZULAR ÜZRƏ SAATLARIN TƏXMİNİ BÖLGÜSÜ VƏ TƏQVİM-TEMATİK PLAN

| Tarix | Mövzular | Dərslik/Tapşırıqlar |
|---|---|---|
| **19.09.24** | **Mövzu 1.** Heyvanların davranışı və rifahı elminin yaranma tarixi haqqında məlumat. | *Əsas dərslik*: [4, səh. 10-17] |
| **26.09.24** | **Mövzu 2.** Davranışın fiziologiyası, ayrı-ayrı heyvan növlərinin davranış təhlili | *Əsas dərslik*: [3, səh.25-42] |
| **03.10.24** | **Mövzu 3.** Heyvanlarda müşahidə edilən davranış pozğunluqları | *Əsas dərslik*: [1, səh. 20-25] |
| **10.10.24** | **Mövzu 4.** Heyvanların daşınması zamanı (hava, su və quru yollarla) tələb edilən rifah qaydaları | *Əlavə vəsait:WOAH internet resurs, Fəsil 7.2-7.4* |
| **17.10.24** | **Mövzu 5.** Heyvanların kəsimi zamanı tələb edilən rifah qaydaları | *Əlavə vəsait:WOAH internet resurs, Fəsil 7.6* |

| | | |
|---|---|---|
| | **Aralıq imtahanı** | |
| **24.10.24** | **Mövzu 6.** Antibiotiklərin və digər baytarlıq preparatlarının heyvan rifahında rolu; | *Əlavə vəsaitlər* |
| **31.10.24** | **Mövzu 7. .** İri- və xırdabuynuzlu heyvanlar, quşlar, təkdırnaqlı və xəzdərili heyvanlar, donuzlar, arılar və su heyvanlarının yetişdirilməsi və təsərrüfat idarəçiliyində heyvanların rifahının və məxsusi ehtiyaclarının təmin edilməsi | *Əsas dərslik*: [3, səh 79-92] |
| **07.11.24** | **Mövzu 8.** Sahibsiz itlərin idarəedilməsi qaydaları | *Əlavə vəsait:WOAH internet resurs, Fəsil 7.7* |
| **14.11.24** | **Mövzu 9.** Müasir heyvandarlıqda rifah anlayışı | *Əlavə vəsaitlər* |
| **21.11.24** | **Mövzu 10.** Dekorativ və zoopark heyvanlarının bəslənməsi, rifahına qoyulan tələblər | *Əlavə vəsait:WOAH internet resurs* |

| | | |
|---|---|---|
| **28.11.24** | **Mövzu 11** Heyvan mənşəli qidalarda qida təhlükəsizliyi problemləri, heyvanların sağlamlığı və Rifahı | *Əlavə vəsaitlər* |
| **05.12.24** | **Mövzu 12.** İşçi atlar və təkdırnaqlı heyvanların rifahı | *Əlavə vəsait:WOAH internet resurs, Fəsil 7.12* |
| **12.12.24** | **Mövzu 13.** Vahid rifah konspesiyası və yanaşması | *İnternet resurslar* |
| **19.12.24** | **Mövzu 14.** "Vahid sağlamlıq" konsepsiyasının tərkib hissəsi kimi heyvanların davranışı və rifahının təsir dairəsi | *İnternet resurslar* |
| **26.12.24** | **Mövzu 15.** Kursun yekun icmalı | |
| | **Final imtahanı** | |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcəkdir.